**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **İYUL 2014**

**ƏMƏK QANUNVERİCİLİYİ VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ**

**Əmək Məcəlləsinə Edilən Dəyişikliklər**

Azərbaycan Respublikasının 27 dekabr 2013-cü il tarixli 875-IVQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilmişdir. Qanunun tətbiqini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 3 fevral 2014-cü il tarixli 100 nömrəli Fərman verilmişdir. Qeyd edilən Fərmanın tətbiqi ilə əlaqədar qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaların bir ay müddətində hazırlanması, əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin texniki infrastrukturunun yaradılması, habelə bu sistemin fəaliyyəti barədə işəgötürənlərin və işçilərin təlimatlandırılması və günədək yazılı bağlanılmış qüvvədə olan əmək müqavilələri barədə əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil olunmasını təmin etmək üçün zəruri tədbirlər görülməsi müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılmışdır.

Əmək Məcəlləsinə edilən dəyişikliklərə əsasən, əmək qanunvericiliyinə əmək müqaviləsi bildirişi anlayışı daxil edilib. Əmək müqaviləsi bildirişi – əmək müqaviləsinin bağlanılmasının, ona dəyişikliklərin edilməsinin və ya xitam verilməsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədi ilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəd hesab edilir.

Əmək Məcəlləsinin 7-ci Maddəsinə əsasən, əmək münasibətləri yazılı formada əmək müqaviləsi bağlandıqda yaranırdı. Buna uyğun olaraq, Məcəllənin 49-cu Maddəsinə əsasən, əmək müqaviləsi tərəflərin imzaladığı anda qüvvəyə minirdi. Qəbul edilən dəyişikliklərə görə isə, əmək münasibətləri və əmək müqaviləsi elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır və qüvvəyə minir. Əmək Məcəlləsinin 49-cu Maddəsinin 2-ci bəndinə əsasən, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə bir iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilir.

Əmək Məcəlləsinin 43-cü Maddəsinə edilən dəyişikliklərə əsasən əmək müqaviləsində göstərilən şərtlər və məlumatların da dairəsi genişləndirilib. Belə ki, müqavilədə işçi barədə məlumatlara onun şəxsiyyətini təsdiq edən sənədin PİN kodu barədə məlumatların da əlavə edilməsi tələb olunur. Eyni zamanda, işçi barədə məlumatlara işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla) və işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə məlumatlar da əlavə edilməlidir.

Həmçinin müqavilədə işəgötürən barədə məlumatların da dairəsi genişləndirilib. İşəgötürən hüquqi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, PİN kodu (fərdi eyniləşdirmə nömrəsi), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı əmək müqaviləsinə əlavə edilməlidir.

Fərman ilə Nazirlər Kabinetinə əmək müqaviləsi bildirişinin formasını və onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarını, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat formasını, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaların müəyyən edilməsi tapşırığı verilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 iyun 2014-cü il tarixli, 183 nömrəli Qərarı ilə "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar" təsdiq edilmişdir. Qaydalar, əmək müqaviləsi bildirişi formaları arasında əmək müqaviləsinin bağlanılması, əmək müqaviləsində dəyişikliklərin edilməsi, həmçinin əmək müqaviləsinə xitam verilməsi ilə bağlı formalar təsdiq etmişdir.

Əmək müqaviləsinin bağlanılmasının, ona dəyişikliklərin edilməsinin və ya xitam verilməsinin elektron qaydada qeydiyyata alınmasi 1 iyul 2014-cü il tarixindən başlamışdır və "Asan İmza" vasitəsilə bütün hüquqi şəxslər, o cümlədən fərdi sahibkarlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vahid elektron bazasına əmək müqaviləsi bildirişini daxil etməlidirlər.

Həmçinin, Azərbaycan Respublikasının Vergilər Məcəlləsinə dəyişikliklər edilməsi barədə 27 dekabr 2013-cü il tarixli 877-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qəbul edilmiş dəyişikliklərə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Azərbaycan Respublikasının Əmək və Vergilər Məcəllələrinə edilmiş dəyişikliklər məşğul əhalinin əmək hüquqlarının müdafiəsini təmin etməyə, qeyri-leqal əmək fəaliyyətinin qarşısının alınmasına və əmək bazarına dövlət nəzarətinin xeyli güclənməsinə şərait yaradılması istiqamətində mühüm addımdır.

Əmək Məcəlləsinə edilən dəyişikliklərin nəticəsində Əmək Məcəlləsinə daxil edilən əmək müqaviləsi bildirişləri, işçilər üçün ilk növbədə əmək hüquqlarının və bu hüquqlardan irəli gələn sosial təminat hüquqlarının müdafiəsinin təminat formasıdır. Dəyişikliklər işçilərdə göstərilən hüquqların icrasını işəgötürəndən tələb etmək imkanı yaradacaq, işçilər üçün iş yeri və əməkhaqqı ilə bağlı arayışların alınması asanlaşacaq, sosial sığorta haqları və vergi daxilolmalarının artırılmasına təkan yaratmalı, habelə vətəndaşların layiqli pensiya təminatı üçün şərait yaradır. Əmək müqaviləsi bildirişləri işəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi, eləcə də əmək haqlarının real göstəricilərinin gizlədilməsi yolu ilə vergidən yayınma hallarının qarşısını alma istiqamətində, işçilərin hüquqlarının müdafiə edilməsi və dövlət sosial təminatının təmin edilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir.

**Genetik Modifikasiya Olunmuş Məhsullara Yeni Qadağa**

"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 775-IVQD nömrəli Qanunu qəbul edilmişdir. Qəbul edilmiş dəyişikliklərə əsasən, genetik modifikasiya olunmuş bitkilərin genetik materialları olan yeyinti məhsullarının və bioloji aktiv əlavələrin dövlət gigiyena qeydiyyatına alınmasına və həmin maddələrin yeyinti məhsullarının istehsalının istifadəsinə qadağa qoyulmuşdur.

Yuxarıda adı çəkilən qanuna edilən dəyişikliklərlə əlaqədar olaraq, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Qanuna və "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununa da dəyişikliklər edilmişdir. Yeni dəyişikliklərə görə elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkilər, müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları və elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısına əlavə edilmişdir.

“Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında” Azərbaycan Respublikası Qanununa edilən dəyişikliyə görə isə elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulan, genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların siyahısına daxil edilmişdir.

Yuxarıda qəbul edilən Qanunlar 1 yanvar 2015-ci ildən qüvvəyə minəcək.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2014 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.